Gəncə Dövlət Universiteti

Rektor: Y.Ə.Yusibov
GDU Elmi Şurasının 24 iyun 2023-cü il tarixli iclasında (Pr.№09) təsdiqlənmişdir.

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

GƏNCƏ - 2023

## 1. Keyfiyyət Təminatı Siyasəti

Gəncə Dövlət Universiteti öz missiyasına, dəyərlərinə və gələcəyə baxış konsepsiyasına uyğun olaraq keyfiyyəti korporativ mədəniyyətə çevirərək, təhsil-təlim, tədqiqat-inkişaf və idarəetmə sahəsindəki bütün müasir siyasət və təcrübələri qəbul edərək, ictimai xidmətə dəstək verir, bütün struktur və bölmələrinin fəaliyyət qabiliyyətinin yüksəldilməsinin təmin edilməsi məqsədini güdən keyfiyyət təminatı siyasətini qəbul edir.

Müvəffəqiyyət göstəriciləri vasitəsilə inkişafı izləyən innovativ, davamlı və qabaqlayıcı yanaşmaya əsaslanan idarəetmə yanaşmasını qəbul edərək, təhsil, tədqiqat, sosial töhfə, beynəlmiləlləşmə və idarəetmə fəaliyyətlərini davamlı olaraq təkmilləşdirməyi hədəfləyir.

Keyfiyyət təminatı siyasəti təhsil proqramlarının, idarəetmənin, infrastrukturun, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini inkişaf etdirmək üçün təhsil, tədqiqat, akademik və fəaliyyət mərkəzləri daxil olmaqla universitetin bütün struktur və bölmələrini əhatə edir. Tələbə və məzunlar başda olmaqla bütün maraqlı tərəflərin məmnunluğunu ən yüksək səviyyədə saxlamaq və hər bir prosesdə maraqlı tərəflərin fəal iştirakını təmin etməyə yönəlmiş siyasəti dəstəkləyir.

Universitet olaraq özünəməxsusluğunu qoruyaraq fərqləndirilməsini təmin edən, akademik azadlığı yayan, ədalətli, şəffaf, hesabatlı və effektiv idarəetmə yanaşmasına malik universitet olmaq siyasətini qəbul edir.

Universitetdə keyfiyyət təminatının inkişafı və keyfiyyət mədəniyyətinin formalaşmasını əsas siyasətlərindən biri sayır.

Təhsil və təlim proseslərində yeni yanaşmaları nəzərə alaraq, tələbə mərkəzli bir yanaşma qəbul edir, bütün proqramlarında akkreditasiyanı təşviq edir. Akkreditasiya zamanı daxili və xarici qiymətləndirmə fəaliyyətləri üçün tələb olunan resursların təmin edilməsini vəzifə sayır.

Bu Siyasətə hər beş ildən bir onun istinad etdiyi hər hansı bir məsələdə dəyişiklik baş verdiyi zaman yenidən baxılır.

## 2. Keyfiyyət Təminatı Siyasətinin əsaslandığı prinsiplər

Universitetin missiya və vizyonuna uyğun olaraq universal dəyərlərə, akademik muxtariyyətə, cəmiyyətlə qarşılıqlı əlaqəyə əsaslanır. Akademik, təhsil və tədqiqat fəaliyyətlərinin keyfiyyətinin artırılması, proses yönümlü idarəetmə və lazımı standartların təmin edilməsi, bütün maraqlı tərəflərin iştirakı və məmnunluğu, davamlı təkmilləşdirmə və davamlılıq prinsipini qəbul edən bir sistemə əsaslanır. Bütün fəaliyyətini İnteqrasiya Edilmiş Keyfiyyət Təminatı İdarəetmə modelinə uyğun olaraq "planla, icra et, nəzarət et və təkmilləşdir" yanaşması ilə hesabatlılıq, fəaliyyət istiqamətliliyi, ixtisaslaşma və müxtəliflik prinsipləri çərçivəsində keyfiyyətə diqqət yetirərək həyata keçirir.

- Keyfiyyət Təminatı Siyasəti öyrənmənin, tədrisin, proqramların, elmi-tədqiqat və akademik fəaliyyətlərin və standartların ən yüksək keyfiyyətini təmin etmək üçün inkişaf xarakteri daşıyır və universitetin strategiyasının bir hissəsidir.
- Keyfiyyət təminatının işlənib hazırlanmasında əməkdaşlıq yanaşması və bütün maraqlı tərəflərin cəlb edilməsi vacibdir. O, universitetin bütün sahələrini və ona töhfə verən bütün maraqlı tərəfləri əhatə etməli və gücləndirməlidir.
- Keyfiyyət təminatında daxili və xarici təsdiq, akkreditasiya və tanınma tələblərinə cavab vermək üçün hazırlanmışdır.
- Keyfiyyət təminatı sistemində universitetin davamlı təkmilləşdirmə və mükəmməllik strategiyalarının bir hissəsidir.
- Keyfiyyət təminatı çərçivəsində universitetin bütün sahələrində keyfiyyətin yaxşılaşdırılması təcrübələri sənədləşdirilir, monitorinq edilir, nəzərdən keçirilir və qiymətləndirilir.
- Keyfiyyət təminatı sistemində qəbulolmalara, proseslərə, nəticələrə və təsirlərə nəzarət prosesinə diqqət yetirir.
- Keyfiyyət təminatı sistemində universitetin akademik standartlarını, institusional və ictimai inamı gücləndirmək üçün nəzərdə tutulub.
- Keyfiyyət təminatında şəffaflığın, sistemliliyin və ədalətin nizamlayıcısıdır.
- Keyfiyyət təminatını universitetdə bütün fəaliyyəti dəstəkləyən və asanlaşdırılan bir prosesdir.

## 3. Keyfiyyət Təminatı Siyasətinin əsaslandığı əsas dəyərlər

- Keyfiyyət
- Etik dəyərlərə sadiqlik
- Akademik azadlıq
- Akademik dürüstlük
- Rasional və tənqidi düşüncə
- Tələbə oriyentasiyası
- İnsan hüquqları
- Gender bərabərliyinə həssaslıq
- Ayrı-seçkiliyin bütün formalarının qarşısının alınması
- Ədalətli təcrübə və fərdi hörmət
- Bərabərlik
- Müasirlik
- Qərəzsizlik
- Dürüstlük
- Doğruluq
- Təmizlik
- Tolerantlıq
- Orijinallıq
- Açıq fikirlilik
- Yenilikçilik
- Qərarlılıq
- Məsuliyyətliyik
- Məmnuniyyətlilik
- Çalışqanlıq
- Davamlılıq
- Şəffaflıq
- Cavabdehlik
- Həvəsləndirmə
- İştirak
- Ekoloji maarifləndirmə

## 4. Keyfiyyət Təminatı Siyasətinin hədəfləri

- Keyfiyyət standartlarına uyğun olaraq keyfiyyət təminatı sisteminin yaradılması,
- Keyfiyyət və standartlarının qorunması, inkişaf etdirilməsi və daim təkmilləşdirilməsi,
- Keyfiyyət təminatı sistemində bütün maraqlı tərəflərin iştirakını təmin etməklə məmnunluq və sahiblik hissinin inkişaf etdirilməsi,
- Keyfiyyətə təminat prosedurları və üsullarının hazırlanması və tətbiqi üzrə məsləhətlərin verilməsi,
- Keyfiyyət təminatı sisteminin koordinasiyasını və idarə olunmasını maksimum səmərəliliklə təmin edilməsi,
- Universitetin əsas dəyərlərini qorumaq, habelə vizyon və missiyanı həyata keçirmək üçün lazım olan daxili və xarici keyfiyyət təminatı prosedurlarının və təcrübələrinin öyrənilməsi,
- Korporativ sədaqəti gücləndirən daxili və maraqlı tərəflər arasında əlaqələrin inkişaf etdirilməsi,
- Ümumi idarəçiliyin inkişafına və bu idarəçiliyə sadiqliyi təşviq edən yanaşmanın hazırlanması,
- Universitetdə özünə hörmət mədəniyyətinin davamlı olaraq yüksəldilməsinin təmin edilməsi,
- Daxili və xarici strateji fəaliyyət səylərini keyfiyyətli təhsil, təcrübə və ictimai xidmət üzərində qurulması,
- Daxili və xarici maraqlı tərəflərin gözləntilərinə uyğun olaraq bölmənin strateji planlarının yaradılmasını təşviq etmək,
- İnnovativ təhsil infrastrukturu və texnikasının təmin edilməsi,
- Həyat boyu öyrənmənin təmin edilməsi,
- Tədrisin, öyrənmənin və tədqiqatın effektiv və səmərəli şəkildə həyata keçirilməsinin təmin edilməsi,
- Müasir inkişafları izləyərək, tələbə və müəllimlərin ən yaxşı texnoloji məlumatlardan istifadə etmələrini təmin etməklə təhsilin səmərəliliyinin və effektivliyinin artırılması,
- Öyrənmə resurslarına asan giriş,
- Keyfiyyətli tədris və öyrənmənin təmin edilməsi,
- Təhsil və təlimdə müasir tələblərə uyğun tələbə mərkəzli yanaşmanın formalaşdrılması,
- Tələbələrin ehtiyaclarını və gözləntilərini qarşılamaq üçün hər cür fəaliyyətin həyata keçirilməsi,

- Təlim - tədris proseslərinin təkmilləşdirilməsi və davamlı inkişafın təmin edilməsi,
- İxtisaslı və təcrübəli akademik heyətin formalaşdırılması,
- Yaradıcı və məhsuldar təfəkkürə malik məzunlar yetişdirmək qabiliyyətinin formalaşdırılması,
- Cəmiyyətin elm və təhsil ehtiyaclarını ödəmək üçün fəaliyyətin gücləndirilməsi,
- Davamlı təhsil, tədqiqat, ictimai xidmət ölçülərinin təkmilləşdirilməsi,
- Elmi tədqiqatların inkişaf etdirilməsi və gücləndirilməsi,
- İxtisaslı tədqiqatçıların işə götürülməsi,
- Nəzəri təhsilin təcrübə ilə inteqrasiyasına zəmin yaradacaq infrastruktur tədqiqatları aparmağa çalışılması,
- Akademik nailiyyətlərdə universitetin bütövlüyünün qorunması və təmin edilməsi,
- Korporativ risklərin idarə edilməsi strategiyasının davamlılığının təmin edilməsi,
- Fənlərarası proqramların inkişaf etdirilməsi,
- İnsan resurslarının bilik, bacarıq və səriştələrinin inkişafı,
- Beynəlmiləlləşmə və tələbə mobilliyi,
- Təhsilin milli səviyyədə akkreditasiyası,
- Təhsilin beynəlxalq səviyyədə akkreditasiyası,
- Milli və beynəlxalq reytinqlərdə daha yüksək səviyyələrə çatma,
- Sosial həssaslıq prinsipi əsasında fəaliyyət göstərən sosial məsuliyyət layihələrinin hazırlanması və tədbiqi,
- Təhlükəsiz, sağlam və dinc iş mühitinin təmin edilməsi,
- Daxili nizam - intizam qaydalarının formalaşdırılması və təmin edilməsi,
- Resurslardan səmərəli istifadə,
- Daxili qiymətləndirmə prosesləri vasitəsilə vaxtaşırı olaraq bütün fəaliyyətlərin nəzərdən keçirilməsi,
- Davamlı monitorinq, qiymətləndirmə və təkmilləşdirmə,
- Hesabatlılığın və şəffaflığın təmin edilməsi,
- Ölçmə və qiymətləndirmə fəaliyyətlərinin sistemli şəkildə həyata keçirilməsi,
- Nəticələrin ictimaiyyətlə bölüşülməsi,
- Müvafiq qanunvericilik və standartların tətbiq edilməsi.

## 5. Siyasətin həyata keçirilməsində nəzərdə tutulan fəaliyyət və ya hərəkətlər

Universitetin daxili və xarici keyfiyyət təminatı sisteminin konfiqurasiyasını və keyfiyyət təminatı mədəniyyətini təşviq etmək üçün iştirakçı mexanizmləri gücləndirmək, bölmələr arasında koordinasiya mexanizmlərini formalaşdırmaq üçün əsas fəaliyyət və ya hərəkətlər aşağıdakılardır:

- Hər il daxili və xarici maraqlı tərəflərlə rəy qiymətləndirmə görüşləri keçirmək.
- Daxili və xarici maraqlı tərəflərlə məlumatlandırma görüşlərinin/seminarların təşkili.
- Daxili və xarici maraqlı tərəflərdən alınan rəy və təkliflərə əsasən keyfiyyətli araşdırmalar təşkil etmək.
- Akademik, inzibati bölmələr və rəhbərlik arasında effektiv kommunikasiya şəbəkəsi yaratmaq.
- Universitet keyfiyyət komissiyasının alt işçi qruplarının əlaqələndirilmiş işini təmin etmək üçün rüblük iclaslar təşkil etmək.
- Universitetin milli/beynəlxalq reytinqlərdə daha yüksək pillələrə çıxmasını təmin etmək üçün birlikdə iş təqvimləri yaratmaq, araşdırmaların müvafiq bölmələr tərəfindən koordinasiyalı şəkildə aparılmasını təmin etmək və nəticələri mütəmadi olaraq izləmək.
- Universitetin keyfiyyət və keyfiyyət alt siyasətlərinin görünürlüğünü və məlumatlılığını artırmaq, hər kəsin görə biləcəyi uyğun yerlərdə elan etmək, keyfiyyət tədqiqatları haqqında illik bülleten təşkil etmək, internet səhifəsində dərc etmək və göndərmək.
- Təhsil, tədqiqat və inkişaf, sosial töhfə və idarəetmə/inzibati proseslərində yaxşı təcrübələrin sayını artırmaq və digər universitetlərlə bölüşmək.
- Keyfiyyət performansının monitorinqi sistemini idarə etmək.
- Keyfiyyət təminatı sistemi proseslərinin davamlı monitorinqini, ölçülməsini və təkmilləşdirilməsini təmin etmək üçün təlim və məsləhət xidmətləri göstərmək.
- Təhsil-təlim, tədqiqat-inkişaf, sosial töhfə və idarəetmə/inzibati proseslərdə "planla, icra et, nəzarət et və təkmilləşdir" dövrü metodunu təmin etmək.
- Akademik bölmələrin özünüqiymətləndirmə proseslərinin qurulmasını təmin etmək, onlara vaxtaşırı nəzarət etmək və təmin etmək.

- Hər bir bölmə rəhbərinin öz bölmələri üzrə Strateji Plana daxil edilmiş hədəflər və hədəflərin reallaşma sürəti ilə bağlı hər il hesabat hazırlamasını və Keyfiyyətin Təminatı Mərkəzinə göndərməsini təmin etmək.
- Ölçmək, izləmək və nəticələri davamlı təkmilləşdirmə fəaliyyətlərində əks olunmasını təmin etmək.
- Planlaşdırılmış daxili və xarici audit fəaliyyətlərini aparmaq.
- İdarəetmə strukturları ilə davamlı keyfiyyət təminatına dair görüşlər keçirmək.
- Keyfiyyət prosesləri üzrə akademik və inzibati heyətin hazırlanmasına yardım etmək.
- Keyfiyyət prosesləri ilə bağlı akademik və inzibati heyəti əhatə edən təlimlər təşkil etmək.
- Proqram akkreditasiyası çərçivəsində Keyfiyyətin Təminatı Mərkəzi vasitəsilə təlimlər keçirmək.
- Daxili və xarici qiymətləndirmə hesabatlarına əsasən müəyyən edilən təkmilləşdirməyə açıq sahələrin güclü tərəflərə çevrilməsi üçün fəaliyyətlər təşkil etmək.
- Sosial töhfə təcrübələri üçün məlumatlandırıcı fəaliyyətlər təşkil etmək.
- Keyfiyyət komissiyalarına mütəmadi olaraq təlimlər keçirmək.
- Beynəlxalq keyfiyyət təminatı agentlikləri ilə peşəkar əlaqələr qurmaq.
- Proqram akkreditasiyası istiqamətində fəaliyyətləri davam etdirmək və genişləndirmək.
- Bölmələrdə Akkreditasiya prosesini tanıtmaq və bölmələrin öz fəaliyyət planlarını və iş qrafiklərini hazırlamaq üçün Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən görüşlər təşkil etmək.
- Bütün bölmələrdə “Akkreditasiya Prosesi” üçün bölmə rəhbərinin təyin olunmasını təmin etmək.
- Bütün bölmələr tərəfindən “Akkreditasiya Prosesinin Tədbirlər Planı”nın hazırlanmasını təmin etmək.
- “Akkreditasiya Özünütəhlil Hesabatı”nın bütün bölmələr tərəfindən hazırlanaraq Keyfiyyətin Təminatı Mərkəzinə təqdim edilməsini təmin etmək.
- “Akkreditasiya Özünütəhlil Hesabatı” hazırlamaq.